*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2025*
*Səh. 159-163*

https://doi.org/10.62837/2025.10.159

***Dosent* RƏHIMOVA GÜLNARƏ SAHIB QIZI**
**grehimova@amu.edu.az**
***Müəllim* ALLAHVERDIYEVA GÜLNAR ƏLI**
**Allahverdiyeva.g95@bk.ru**
**Azərbaycan TibbUniversiteti**
**Xarici Dillər kafedrası**

# MÜASİR İNGİLİS QRAMMATİKASININ FORMALAŞMASINDA TARİXİ DƏYİŞİKLİKLƏRİN ROLU

**Açar sözlər:** *qrammatika, tarixi dəyişikliklər feil, köməkçi feillər*

Bu məqalə hal-hazırda ingilis dili, onun qrammatik quruluşu haqqında məlumat almaq, onun tarixi inkişaf yollarını öyrənmək üçün çox aktualdır. Bu baxımdan, müəllifin təqdim etdiyi məqalə müəllim, tələbə, aspirant və xarici dilləri, o cümlədən ingilis dilini öyrənən, onun tarixi ilə maraqlanan hər bir kəs üçün fatdalıdır.

Məqalədə ingilis dilinin qrammatik quruluşuna dair misallar göstərməklə məlumatlar verir və onun tarixi inkişaf yollarını göstərir. O cümlıdın söz sırasından bəhs edərək, burada tobe, to have, shall, vill feillərinin zaman formalarının yaranmasında əsas rol oynadıqlarını qeyd edir. Bundan başqa, məqalədə, cümlədə mövcud sintaktik əlaqələrdən bəhs olunur. Mənbələrə əsaslanaraq, qeyd olunur ki, Qədim ingilis dili dövründə bu dil əsasən sintatik dil olmuş, sonralar orta ingilis dili dövründə hal, cins, kəmiyyət kateqoriyalarını göstərmək üçün söz önlərindən istifadə olunmağa başlanmışdır və bunlara aid misallar gətirilir. Burada analitik vasitələrlə yanaşı, qrammatik mənaların bir hissəsinin sintetik, yəni suffikslərlə düzəldiyi də qeyd olunur. Müəllif həmçinin sintetik vasitələri göstərərək onlara aid misallar verir: tables, foxes, oxen, watohed. İngilis dili dünya dilləri arasında ən geniş yayılan və sürətlə inkişaf edən dillərdən biridir. Bu dilin müasir qrammatik modeli uzun əsrlər boyubaş vermiş tarixi, social və dil daxili dəyişikliklərin nəticəsi olaraq formalaşmışdır. Müasir ingilis dilində qrammatik sistem üçün tarixi inkişafın nəticəsidir və müxtəlif dövrlərdə baş vermiş fonetik, leksik və morfoloji dəyişikliklərlə formalaşmışdır. Qədim ingilis dili (Old English) və erkən yeni ingilis dili (early modern English) mərhələlərində qrammatik quruluşda mühüm islahatlar baş verir, ffleksiv təbiəti sistemləri daha analitik quruluşa keçid müra---- edilmişdir. Feil zamanlarının sadələşməsi və köməkçi feillərin genişlənməsi bu dəyişikliklərin əsas istiqamətlərindəndir. Məqalə ingilis dili qrammatikasının tarixi və onun inkişaf yollarından bəhs edir. Müəllif ingilis dilinin qrammatikmquruluşu ilə Azərbaycan dilinin qrammatik quruluşunu müəyyən edir. O, həmçinin mötəbər mənbələrə əsaslanaraq qeyd eir ki, ingilis dili cümləlvaləri və söz birləşmələri analitik yolla qurulur və misallar göstərilir. Dilçi alimlər müəyyən etmişlər ki, ingilis dilinin qrammatik quruluşu digər dillərin, o cümlədən Azərbaycan dilinin qrammatik quruluşundan əsasən onun analitik quruluşa malik olması ilə fərqlənir. Müasir ingilis dilində söz və birləşmələr, cümlələr arasındakı sintaktik əlaqələr əsasən köməkçi feillər, sözönləri, artikl, söz sırası və başqa vasitələrlə qurulur. İngilis dilində

zaman formaları əsasən köməlçi feillər vasitəsilə düzəldilir. Məsələn, indiki və keçmiş davamedici formalar ***to***, ***be*** köməkçi feil, indiki və keçmiş zamanların bitmiş forması ***to have*** köməkçi feil, gələcək zamanın qeyri-müəyyən forması **shall** (I şəxsin tək və cəmində) və ***will*** (qalan şəxslərlə) köməkçi feilləri, gələcək zamanın davamedici forması **shall**, ***will*** və ***to be*** köməkçi feilləri, indiki və keçmiş zamanların davam edib bitmiş formaları ***to have*** və ***to be*** köməkçi feilləri, gələcək zamanını davam edib bitəcək forması isə ***shall, will, to have*** və ***to be*** köməkçi feilləri vasitəsilə düzəldilir. Məsələn:

1.İ **am** writing. He is singing. They is singing. They are playing. She **was** reading. They **were** swimming.
2. I **have** read. He **has** gone. They **had** written.
3. We **shall** wait. They **will** work in hu garden.
4. I **shall** be writing. They **will be** going.
5. We **have been** working. They **had been** seeming.
6. We **shall have been** playing. They **will have been** watching.

Müasir ingilis dilində feilin məchul növü, feilin vasitəli şəkilləri və inkarlıq kateqoriyalı forması da analitik yolla düzəldilir. Məsələn:

1. I **am called**. He **has been invited**. We **shall have been** invited.
2. I **should** work. He would come. We **should have called**.
3. He **does not** invite to they party. They **do not** learn Dutch.

Söz sırası və söz birləşmələri arasında sintaktik əlaqələrin istifadəsində əsas rol oynayır. Məsələn,

Light lamp – lamp light, Sohn saw Nick – Nick saw Sohn.

Burada söz birləşmələri və cümlələrdə sözlər arasındakı sintatik əlaqələr yalnız sözlərin sırası ilə ifadə olunmuşdur (1. səh. 23).

İngilis dilində qrammatik mənaların bu cür ifadə olunmsına bir çox misal göstərmək olar. Buradan da məlum olur ki, dilin qrammatik quruluşunu təşkil edən əsas cəhət analitizmdir. XIX əsrin əvvəllərində məşhur alman filosofu F.Şlegelin dilləri tipoloji cəhətdən bölgüsü elm aləminə məlum idi, lakin bölgünün qüsurları var idi. Heç bir dil tam sintetik, yaxud da analitik ola bilməz. Belə ki, sintetik dillərdə analitzm, analitik dillərdə isə sintetizm ünsürləri olur. İngilis dili də bu reallıqdan kənarda qala bilmir. Bu dilin analitik olmasına baxmayaraq, qrammatik mənaların bir hissəsi sintetik vasitələrlə ifadə olunur. Bunlar aşağıdakılardan ibarətdir:

1.İsmin kəmiyyət kateqoriyasını göstərən –s, -es, -en suffiksləri: **tables**, **foxes**, **oxen**;
2. İndiki zamanın qeyri-müəyyən formasının III şəxsin təkində işlənən s (es) suffiksi: He writes. She reads;
3. Canlıları bildirən isimlərin təkində yiyəlik halı düzəltmək üçün işlədilən es suffiksi: the mans car. The boys toy;
4. Qaydalı feillərin keçmiş zaman qeyri-müəyyən formasını düzəltmək üçün işlədilən –ed suffiksi watehed called;

5. Bir və bəzən iki hecalı sifət və zərflərin müqayisə və üstünlük dərəcəsini düzəltmək üçün işlədilən –er, -ets suffiksləri: short**er**, short**es**t, fast**er**, fast**est**;
6. Bəzi isimlərin qadın cinsinə aid olduğunu bildirmək üçün fransız mənşəli –ess suffiksi: mistr**ess**, actr**ess** və s.

İngilis dilində sözün morfoloji formasını dəyişmək üçün iki üsuldan da istifadə olunur: 1) daxili fleksiya; 2) supperletiv üsul.

Lakin bu üsullardan heç biri müasir ingilis dilində geniş surətdə işlənmir. Daxili fleksiya üsulu ilə yalnız bir neçə ismin cəm forması – man-men, woman-women, tooth-teeth, foot-feet, goose-gesse, mouse-mice, louse-lice, bir qisim qaydasız feillərin keçmiş zaman qeyri-müəyyən və keçmiş zaman feili sifət forması (to speak-spoke-spoken, to write-wrote-written, to begin-began-begun və s.) düzəldilir. Suppletiv üsulla isə yalnız bir neçə feilin keçmiş zaman qeyri-müəyyən forması (to be, was, were, to gv-went-gone) və bəzi şəxs əvəzliklərinin obyekt hal forması (İ me, we-us) düzəldilir. İngilis dilinə xas olan sintetik formaların sözlərdə azalması qrammatikanın asan olması təəssüratını yaradır. Lakin, müasir ingilis dilində morfoloji sintetik formaların azlığı dilin qrammatikasının asan olması demək deyil, onun qrammatik qruluşunun mürəkkəbliyinə dəlalət edir. Fikrimizcə, dillərin qramatik baxımdan asan və çətin kimi qruplaşdırılması həm nəzəri, həm də praktiki cəhətdən düzgün olmazdı.İngilis dili morfoloji – sintetik forma baxımından heç də indiki kimi məhdud olmamışdır. 700-1100-cü illərdə qədim ingilis dilinin zəngin və mürəkkəb sintetik sistemi olmuşdur. Bu dövrdə isim qrammatik cins hal və kəmiyyət kateqoriyalarına malik olmuşdur. İsmin üç cins (kişi, qadın, orta) və dörd hal (adlıq, yiyəlik, təsirlik, yönlük) şəkilçisi var idi. Bunların hər birini bildirmək üçün qədim ingilis dilində şəkilçilər mövcud olmuşdur. Qədim (Qİ) ingilis dilində sifət, müasir rus dilində olduğu kimi isimlə hala, kəmiyyət və cinsə görə uzlaşırdı. Bunun üçün dildə müvafiq şəkilçilər olmuşdur. Şəxs və kəmiyyət kateqoriyaları feillərdə xüsusi şəkilçilər vasitəsilə ifadə olunmuşdur. Lakin qrammatik formanın yox olması, qrammatik mənanın itməsi demək deyil. Elə buna görə də sintetik formasını itirmiş qrammatik mənalar başqa bir vasitə, forma ilə olunmalı idi. Forma və məzmun arasında olan dialektik vəhdət bunu tələb edirdi. Orta ingilis dili dövründə sintetik formalarını itirmiş qrammatik mənaların ifadəsi üçün yeni qrammatik formalar, əvvəlki formalardan keyfiyyətli formalar analitik formalar yaranmışdır ki, bu da ingilis dilinin qrammatik morfoloji quruluşunu əsaslı şəkildə dəyişmişdir. Qədim dövrdə sintetik dil olan ingilis dili orta ingilis dili dövründə analitik dilə çevrilmişdir. Sözün analitik forması onun elə şəklidir ki, o, ayrılıqda iki və daha artıq komponentdən ibarət olur. Bunların biri tərkibin nominativ mənası, qalan həmin tərkibə aid olan qrammatik mənaları ifadə edir. Məsələn:

**Am/ is/ are writing**, **have/has written**, **shall /well have been writing**, **have/ has been called** və s. (3. səh.33).

Bu analitik formalar hazırda müasir ingilis dilində işlədilir. Misallardakı birləşmələrdə dalğalı xətlə verilmiş komponentlər qrammatik mənaları, düz xətlə verilənlər isə onların nominative mənasını bildirir. İngilis dilində işlədilən sintetik və analitik formalar

bir-birinə qarşılıqlı əlaqədə olur və vəhdət təşkil edir (hər bir dildə olduğu kimi). Konkret bir dildən asılı olmayaraq sözün morfoloji inkişafı prosesində bu formaların hər biri bir mərhələ təşkil edir. Amma onların biri digərinin nəticəsi, yaxud başlanğıcı olur. Analitik formalar öz başlanğıcını söz birləşməsindən götürür. Zaman keçdikcə komponentlərdən birinin leksik mənası zəifləyir və əsasən qrammatik məna kəsb etməyə başlayır, dildə sözün analitik forması yaranır. Misal olaraq ingilis dilində olan shall/well+məsdər tərkibi analitik formanı göstərə bilərik. Bu forma tarixən modal feil-məsdər tərkibi olmuşdur. Orta ingilis dili dövründə modal feil öz leksik mənasını itirmiş və gələcək zaman formasına çevrilmişdir. Shall, will köməkçi feilləri şəkilçiləşmə formaları almışdır. Onların hər ikisi ll şəklində işlənir ki, bu da köməkçi feilin şəkilçiyə çevrilməsini göstərir. Funksiya baxımından dilin analitik və sintetik formaları arasında əlaqə qrammatik mənaların makra sahəsində müşahidə olunur. Beləliklə, eyni bir qrammatik kateqoriya bir makro sahədə sintetik, digərində isə analitik forma ilə ifadə olunur. Müasir ingilis dilində buna feilin zaman kateqoriyasını misal göstərmək olar. Bu kateqoriya feilin keçmiş qeyri-müəyyən zaman formasında sintetik, gələcək zamanın qeyri-müəyyən formasında isə analitik yolla ifadə olunur. I invited. I shall invite. I shal=I`ll; He will=he`ll; Isould=I`d; he would=he`d; I am=I`m; he is = he`s; she was not = she wasn`t; they were not = they weren`t; I have =I`ve; he has not = he hasn`t; I do not = I don`t; she does not = she dosen`t; they did not = they didn`t və s. misallardakı bərabərliyin sol tərəfində köməkçi nitq hissələri analitik morfem və müstəqil söz kimi işləndiyi halda, bərabərliyin sağ tərəfində həmiin köməkçi sözlər özlərindən əvvəl gələn leksemlə bitişərək, şəkilçi kimi işlənmişdir. Bu zaman köməkçi nitq hissələrinin əsas sözə birləşərək işlənmə məqamında nə köməkçi nitq hissəsindən, nə də analitik morfemdən danışmaq olar (4. Səh. 28). Beləliklə, dilçi alimlərin, qrammatika ilə məşğul olan tədqiqatçıların və ingilis dili tarixinin müxtəlif dövrlərində yaşamış yazıçı və şairlərin əsərlərindən (Veyklef -XIV əsr, Coser, Şekspir, Wyelif və s.) məlum olur ki, ingilis dili cümlələrində söz sırası dəyişmiş, inkişaf etmiş və hazırda müəyyən qrammatik qaydalara əsasən işlədilir.

**Ass. prof. Rahimova Gulnara Sahib**
**Teacher Allahverdiyeva Gulnar Ali**

**THE ROLE OF HİSTORİCAL CHANGES İN THE FORMATİON OF MODERN ENGLİSH**

**S U M M A R Y**

**Keywords:** *histerical changes, qrammar, word order, transformation*

The articl is about the qrammatical strukture and history of the English language and its ways of development. The author camparing the structure of English qrammar with the strukture of the Azerbaijan qrammar. He based on the sources, notes that English sentences and word combinations are bulit by analytical ways.

Azerbaijan language is syntactical language. Author gives examples and the ways of development of the analitical structure of the English language, expiains the meanings of the combinations in the sentences. Historical changes in English grammaq have played a crucial role in shaping the modern form of the language. From old English to middle English and finally to modern english grammar structures have un-

dergone significant simplification. Many inflectional ending were lost word order became more fixect and the influence of latin, Trench and other global language. These changes made English vocalrilany more analytical ratter synthetic. Allowing meaning to depend more on word order and auxillary werbs. As a result, modern English grammer is easier, more flexible, and more adaptabl for international communication. Historical developments continue to ingluence comtemporary use age demonstrating dynamic and evolving nature of the English.

**Доцент Рагимова Гюльнара Сахиб**
**Аллахвердиева Гюльнар Али**

## РОЛЬ ИСТОРИЧЕСКИХ ИЗМЕНЕНИЙ В ФОРМИРОВАНИИ СОВРЕМЕННОЙ АНГЛИЙСКОЙ ГРАММАТИКИ

## Р Е З Ю М Е

**Ключевые слова:** *грамматика роль английский язык изменении, стили с тирческий*

Это статья о грамматической структуре английского языка и пути ее развития.Автор сравнивает грамматическую структуры с Азербайджанской грамматикой.Он основывается на источниках, объясняет что английские слова и словосочетания строятся аналитическими путями. В Азербайджанском языке они строятся синтетическими путями.Автор приводит примеры и пути развития аналитической структуры английского языка, объясняет значение словосочетаний в предложениях. Грамматическая система современного английского языка сформировалась в результате длительного исторического развития, включавлиего фонематические, лексические и морфологические изменения. На этапах древнеанглийского, среднеанглийского и раненоwоанглийского периода произошли значительные реформы. Исследование показывает, что исторические процессы определима не только грамматический формы: но и функционально – стилистические особенности современного английского языка. Упрощение временных форм глаголов, появление системы артиклей закрепление порядка слов и расширение функций вспомогательных глаголов стали ключевыми направлениями этих изменений. Данная статья анализирует роль исторических изменений в формировании современной английской грамматики.

## Ə D Ə B İ Y Y A T

1.Musayev Q.İ. Qrammatik mənaların analitik və sintetik ifadə vasitələri arasında qarşılıqlı əlaqə məsələsinə dair. Bakı 1975;
2. Crystal D. İngilis dilinin ensiklopediyası. Cambridje Universiteti "Press" 2010;
3. Hüseynzadə A. Müasir ingilis dilinin qrammatikası. Bakı 2010;
4. Hogg R, Denison D. История английского языка.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri №10, 2025*
*Səh. 159-163*

**Rəyçi: Prof. Z.Ş.Məmmədova**